# MÜKƏMMƏL XARAKTERLİ İNSAN

*(Yazıçı Qafar Cəfərlinin 65 yaşına)*

"Əsl dost üçün hüquq və öhdəçilik bərabər olmalıdır"- deyiblər nə vaxtsa. Bu prinsipə uyğun yaşamaq daha asan və qənaətbəxş hesab oluna bilər. Adam bəzən ömründə cəmi bircə dəfə ünsiyyətdə olduğu insanı da özünə həmdəm, dost seçə bilir. Mütəmadi əlaqələr burada vacib rol oynamır. Əsas olan odur ki, bu, bircə dəfə ünsiyyətlə də o insanın mükəmməl xarakterinə bələd olursan. Mənim üçün, bəlkə də çoxları üçün Qafar Cəfərli belə insanlardan biridir.

Eşidəndə ki, Qafar Cəfərli altmış beş yaşını haqlayır, düzü inanmağım gəlmədi. Çünki indiki qanunlarımıza görə 65 yaş təqaüdə çıxmaq yaşı kimi müəyyənləşdirilib. Bizim kifayət qədər yaxşı tanıdığımız Qafar Cəfərli isə ötən on illər ərzində əzmini, iradəsini, ötkəmliyini bir an belə zəiflətmədən işləyir, çalışır. Vətənə, millətə, ədəbiyyata təmənnasız xidmətlər göstərir. Mənim nəzərimdə üç yüz altmış beş günün fırlanaraq yaşın üstünə bir yaş da gətirməsi sadəcə, astronomik zaman ölçüsüdür və insan fəaliyyəti ilə bəzən tərs mütənasiblik də təşkil edə bilər. Ancaq onu özümə bir yaxın məslək sirdaşı hesab etdiyimdən altmış beş yaşının tamam olması ərəfəsində bir söz adamı kimi haqqında düşündüklərimi mütləq qeyd etməliyəm. Bu, mənim həm də dostlar qarşısında bir dost öhdəçiliyimdir.

Qafar Cəfərli bir el ağsaqqalıdır. Boylu-buxunlu, fiziki cəhətdən gümrah bədən quruluşuna malik mükəmməl bir Azərbaycan kişisidir. Mənim düşüncəmə görə, Tanrı belə əvəzsiz payı o insanlara bəxş edir ki, onlar daima vətənin, millətin qulluğunda dura, enli kürəkləri və sinələri ilə düşmən qarşısında sipər olub qoruyuculuq missiyalarını layiqincə yerinə yetirə bilsinlər. Qafar Cəfərli həyatında gənc yaşlarından ürəyinin hökmü ilə seçim edib, ali təhsilli hüquqşünas kimi millətin əmin-amanlıq şəraitində yaşaması üçün daima iradə nümayiş etdirib. Vətənin başının üstünü qara buludlar kəsdirəndə əlində silah Qarabağın əksər rayonlarında, həmçinin şəhərlər gözəli Şuşada vətən torpaqlarını düşməndən qoruyub, ərazi bütövlüyümüz uğrunda döyüşlərdə şəxsən iştirak edib və döyüşçü yoldaşlarına rəhbərliyini, komandirliyini bir an belə əsirgəməyib. Daxili çəkişmələr zamanı tutduğu mövqedən və şəxsi üstünlüyündən istifadə edərək əzmlə qarışıqlığın, xaosun qarşısını almağa, sabitliyin bərpasına çalışıb.

Qafar Cəfərli gözəl nitq qabiliyyətinə malikdir. Tədbirlərdə məzmunlu çıxışlar edir, dinləyicilərin diqqətini asanlıqla cəlb etməyi bacarır. Qısa, təfsilatı üzrə yaddaqalan ifadələrlə danışmağı xoşlayır. Tanrının bəxş etdiyi belə əvəzsiz sərvəti ilə gənclik çağlarında bir müddət radioda çalışmaqla bu sahədə xidmətini əsirgəməyib. Doqquz il əvvəl bölgə televiziya kanalının layihə üzrə aparıcı mütəxəssisi kimi fəaliyyət göstərib, əsərlərinə filmlər çəkilib, serial çəkilişində cəmiyyət üçün çox mühüm olan rollardan birini canlandırıb. Beş il əvvəl çəkilib ardıcıl olaraq iki il ölkənin aparıcı telekanallardan olan "Azad Azərbaycan" TV- də nümayiş edilən "Günəşim ol" teleserialında oynadığı biznesmen rolu da tamaşaçıların böyük rəğbətini qazandığının şahidi olduq. Bütün bunlar da onun çoxşaxəli bacarığa malik olmasından, xüsusu istedadından və istedaddan məharətlə istifadə etmək bacarığından xəbər verir.

Qafar Cəfərli bu gün Azərbaycan Yazıçılar Birliyi Lənkəran Zona Bölməsinin sədri olaraq Cənub bölgəsinin yaradıcı insanları arasında xeyli müddət davam edən sükuta son qoyaraq bir canlanma yaradıb, başqa bölgələrə nümunə ola biləcək ədəbi mühit formalaşdırıb. Bildiyimə görə, keçən il ərzində Bölmədə müxtəlif məzmunlu 36 tədbir keçirilib ki, bu da aya üç tədbir deməkdir. Pandemiyanın ağır şərtləri daxilində bu sayda tədbirlərin keçirilməsi sözün əsil mənasında fədakarlıqdır. Bu işi təşkil və uğurla həyata keçirən rəhbərdə ədəbiyyata sonsuz sevgi, bacarıq və təşkilatçılığın gərək olması heç kimə sirr deyildir. Q.Cəfərlinin şəxsi inisativi sayəsində Bölmənin orqanı olan "Şəfəq" ədəbi-bədii jurnalın nəşri mütəmadiləşib. İndi Cənub bölgəsində yaşayıb yazıb-yaradan qələm adamları heç bir maneə ilə üzləşmədən problemsiz olaraq öz əsərlərini, xarici dillərdən etdikləri tərcümələri "Şəfəq"



ədəbi-bədii jurnalında çap etdirib oxucuların ixtiyarına çıxarda bilirlər.

Göründüyü kimi, Qafar Cəfərli üzərinə götürdüyü missiyaya tam məsuliyyəti ilə yanaşan bir söz adamı, qələm sahibi olmasını son illərdəki əməli fəaliyyəti ilə bir daha təsdiq etmiş oldu.

Qafar Cəfərli Azərbaycan ədəbi mühitində imzasını təsdiq etmiş yazıçıdır. Onun çoxsaylı hekayələri, povestləri, dedektiv əsərləri oxuculara qəzet, jurnal və saytlardan, ədəbi almanaxlardan tanışdır. Artıq səkkiz kitabın müəllifidir. Haqqında filologiya elmləri doktoru Vaqif Yusifli, ədəbiyyatşünas-tənqidçi, fəlsəfə doktoru, dosent Allahverdi Eminov, şair publisistlər Ağacəfər Həsənli, Əbulfət Mədətoğlu və digər məşhur imza sahibləri samballı yazılar hazırlamış, əsərlərini təhlil etməyə, ədəbi mühitdə öncüllərdən hesab olunan yazıçıların əsərləri ilə müqayisə, paralellər aparmağa çalışmışlar. Onun yaradıcılığının bir qismi ilə tanış olan söz adamı kimi bunları alqışlayıram, təqdirəlayiq hal olduğunu vurğulayıram və bəzi məqamları xüsusilə qeyd etmək istəyirəm.

Qafar Cəfərlinin əsərlərində təsvir etdiyi hadisələr real həyatda baş verənlərdir. Hətta yazıçı təxəyyülü olan hadisələrdə belə təhkiyə və təsvirlər, surətlərin dialoqları, peyzajlar, əsərin dili və təsvir vasitələri o qədər maraqlı, canlı və dinamik, obrazlı və cilalanmış halda verilir ki, hadisələrin real həyatdan götürüldüyünə oxucuda şübhə yeri qalmır. Əsərlərindəki əksər personajlar əsasən ətrafımızda olan mütəmadi rastlaşdığımız insanlardır. Onların arasında günü-gündən artmaqda olan cinayətkarlar da var, hər şeydən kənar adi həyat tərzini yaşayanlar da. Cinayətkar, əlbəttə ki, cəmiyyəti korlamağa çalışacaq, hansı yolla olursa-olsun başqalarını təsir altına salmağa, onları istədiyi kimi idarə etməyə, yeni-yeni cinayətkarlar yetişdirməyə cəhd göstərəcək. Adi, normal həyat tərzi yaşayan zəif adamlar isə tezliklə təsir altına düşəcək, bir müddətdən sonra davranış və əxlaqı pozulacaq, pisləşəcək. Belə hallarla qarşılaşanda nə etmək, necə etmək lazımdır ki, düşdüyün bataqlıqdan xilas ola biləsən?

Bax, bütün bunların hamısı yazıçı Qafar Cəfərlinin əvəzsiz əsərlərində öz təsvirini tapıb, istənilən insan onları oxumaqla bəhrələnə, çıxış yolu tapa bilər. Mən həmin əsərlərdən biri haqqında bəhs etmək fikrindəyəm.

Oğlan personaj həyatında cinayətkarların təsiri altına düşür və narkomana çevrilərək bu çirkabdan heç cürə qurtula bilmir. Əvvəlcə istifadəçisi olur, sonra isə narkotacirlər onu narkotika satışı ilə məşğul olmağa, yeni-yeni narkomanlar yetişdirməyə məcbur edirlər. Biçarə ana oğlunun halına acıyır, ancaq onu xilas etmək, cinayətkar qrupun caynağından qopartmaq üçün əlindən heç nə gəlmir. Oğlunu xilas etmək üçün yüz ölçüb, bir biçir, çıxış yolunu yalnız polisə məlumat verməkdə tapır. Hər şeyi yerli-yataqlı onu qəbul edən yüksək çinli polis zabitinə danışır. Əməliyyat qrupu qəflətən evə girir, axtarış aparılır və "maddi sübut" tapılmır. Zabit ananın üzünə baxır, ana utandığından başını aşağı salır. Ana ürəyi oğlunun həbs olunması ilə son anda barışa bilmir və "maddi sübut"un ələ keçməməsi üçün kanalizasiya borusu ilə axıdır.

Acınacaqlı səhnədir, deyilmi?

Oğlunu xilas etmək istəyən Ana bütün vasitələrə əl atır. Elə belə həssas yanaşma tərzinə görə də bütün insani xüsusiyyətləri özündə cəmləşdirən obraz Anadır. Bax, məhz bu göstəricilərdən belə qənaətə gəlmək olur ki, Qafar Cəfərlinin yazıçı missiyasının başlıca obrazı İNSAN olmaqdır. İnsan kimi düşünmək, insan kimi hərəkət etmək.

Yaratdığı bütün personajların arxasında dayanmağı, onlara düşdükləri situasiyalarda tam günahkar olmadıqları barədə xəbərdarlıq etməyə, ümid işığı yandırmağa, istədikləri halda iradə nümayiş etdirməklə vəziyyətdən çıxış yolu tapmağı tövsiyyə edən bir yazıçıdır, bu gün cəmiyyət üçün faydalı insan olaraq tanıdığımız Qafar Cəfərli.

Yazıçı Qafar Cəfərlinin 65 yaşı mübarək olsun. Onu bu təmtəraqlı təqvim münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı, xoş günlər, firavan həyat, bol-bol yaradıcılıq uğurları arzulayırıq.

*Hörmətlə:*

***ƏLİ BƏY AZƏRİ***

***Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Xəzan" ədəbi-bədii jurnalın baş redaktoru***

***24.01.2022***